Bu qürub çağında mənə toxunma,
Qayıt get,
Getdiyin yollar tanışdı.
Qayıt get, qoy görüm saralmış otlar,
Qurumuş çiçəklər nədən danışır.

Bir də bu ümidə umsunma tamam,
Get, ayrı əllərdən nəvaziş ara.
Bu torpaq üstündə sənə sarılsam,
Torpaq da od tutub məni yandırar...

Baş vursam köksünün cüt dalğasına,
Dalğalı dənizə mən yad olaram.
İsti nəfəsinə uyuyaramsa,
İsti ocağımda unudularam!

Üstümdən bu axşam küləyi əsə,
Yalan pıçıltılar olmasa, nə qəm.
Üzümü üzünə söykəməkdənsə,
Bu qara daşlara sürtmək istərəm.

Doğmadı meşədən dalğalanan səs,
Quşlar da bir tanış havayla dinir.
Sənintək yüz gözəl danışa bilməz
Bir tənha cığırın qəm tarixini...

Köksümə sıxılıb bir mamırlı daş,
Üzümə saçıntək toxunur duman.
Dağ çayı dinirsə, sən dinmə, yavaş,
Yüz sirrə yol açır danışığından.

Günün batan çağı bir ağlar neyəm,
Özümü özümə göstəribdi gün.
Torpaqdan bozarmaq öyrənməliyəm,
Sinəmdə yad güllər bitirməməkçün...

Göytəpə, 18.X.1980

Ana dilim! Səni allahların, göylərdən gələn kişilərin, işıqdan doğulan adamların müqəddəs dili, alpların-ərənlərin qəhrəman dili, bayrağının işığına dünyanı toplayanların fateh dili, nəhayət ölkələr dolaşan mühacirlərin didərgin dili adlandırırlar! Əmr etmək, hökm vermək üçün yaradılmış hakimiyyət; ordu, yürüş dili deyiblər sənə! Şaman dualarında təbiətin, yerin-göyün səsisən! Qayaların üstündə qaya kimi sərt bir millətin andısan. Dədə Qorqud boylarında dağlarımızın gül-çiçək dənizi kimi min rənglisən! Nəsiminin harayında üsyansan, ildırımsan! Füzulinin pıçıltısında dünyanın ən böyük qəm yüküsən!.. Mənim həsrətimdə gələcəyə ümidsən...

SAĞ OL, ANA DİLİM!

Yollarım sınandı yad ölkələrdə,
Neçə yad dodaqda səsləndi adım.
Sağ ol, ana dilim, məni heç yerdə
Köməksiz qoymadın, yalqız qoymadın.

Barmağın altında düymə fırlanır,
Londonla, Parislə yanaşı Bakı...
Doğma sözlər üçün darıxan hamı?
Deyin qoy dinləsin: "Danışır Bakı"!

Danışır, açılır ömrün baharı,
Dünyaya mən onun qoynundan uçdum.
Mənim ürəyimin antenaları
Türkün bu müqəddəs dilinə tuşdu.

Döyüşdə qılınctək sıyrıldı qından,
Başımın üstündə bayrağım oldu.
Torpağım ikiyə bölünən zaman
Bu dil bölünməyən torpağım oldu.

Utansın tarixə dəllallıq edən,
Tarix qapısına açar sözlər var.
Pərdəni qaldırsan beş-on kəlmədən
Qondarma cildlər tarmar olar.

Bu dildə sevincim, qəmim, kədərim,
Təzə ümidlərə açılan səhər.
Bu dilin reaktiv təyyarələri
Araz sərhəddini qıran kəlmələr.

İpək nəğmələrin gülləbatmazdı,
Qolunu qandalla bağlamaq olmaz.
Bu taydan o taya arxayın keçən
O taydan bu taya arxayın keçən.
Dilin sənədini yoxlamaq olmaz,
Sevginin yolunu saxlamaq olmaz!

Sağ ol, ana dilim, ana öyüdüm,
Füzuli eşqindən divanə dilim!
Ürəyim başına nəfəs dərmədən
Fırlanıb kül olan pərvanə dilim!

Hanı Xanım çaylar, hanı bəy göllər?-
Dillərdə cücərən yurdun izidir.
Yüz yol yaralanmış doğma kəlmələr
Xalqımın döyüşlər xəritəsidir.

Qarabağ, Qaradağ... di seç, di ayır,
Dağları basılmaz ordum sanmışam.
Harda bircə kəlmə sözüm yaşayır
Oranı halalca yurdum sanmışam.

Üstünə yüyürdü Quran dilləri,
Peyğəmbər dilləri, qanun dilləri...
Qapılar dalında qoydular səni,
Haqq dedin, dabandan soydular səni,
Ancaq məhv olmadın, anam, can dilim,
Ordular sarsıdan Qəhrəman dilim!

Ömrüm qırılmazdı, yol qırılsa da,
Sənlə həmişə mən üzüağam.
Bədənim torpağa tapşırılsa da,
Ruhumu mən sənə tapşıracağam.

Dubulti, 17.01.1982

RUHUMUZ SƏRHƏDSİZ OLDUĞU ÜÇÜN

Bu vətən deyilən dünyam sirlidi,
Bir paytaxtı sevinc, bir paytaxtı qəm.
Bu Vətən torpağı çox qəribədi,
Hələ sərhəddini tapa bilmirəm!

Arzu da beləcə sərhədsiz olur,
Ümman da beləcə, göy də beləcə.
Ruhumuz sərhədsiz olduğu üçün
Payımız gəlibdi göydən beləcə!..

Belə sonsuzluğun sonsuz qayğısı...
Bəlkə də taleyim düz eləməyir.
Mənə, yurdumuzun son sahilinə
Yetməyə bir ömür bəs eləməyir.

Dünyanın köksündən bir ümman axır,
Yayılır qolları, dəyişir adı.
Yolları Şərurda dayanan xalqın
Qəlbinin paytaxtı Kərbəladadı.[1]

Dərbənd qəbristanı özündən böyük,
Müdrik babamıza dayanacaqdır...
Bir gün Dədəm Qorqud mənə işimcə
Təzə ad verməyə oyanacaqdır!

"İrəvan çuxuru" alışır sazda,
Sinəmə sıxmağa "Göyçə gölüm" var.
Dağların başında Ələsgər kimi
Bizdən uzaq düşən bir küsülüm var.

Gəzəm oba-oba Qarayazını,
Süleyman saz çala, ağlayam zar-zar.

[1] Füzulinin əbədi beşiyi mənasında.

Hərəsi yurdumun bir paytaxtıdı
Borçalı elində tutqun analar!

Hardan tapacaqsan sərhədlərini
Əmrahın sazından keçirsə əgər!
Dərbənddə Pərvanə adlanan qızın
Çağlayan gözündən keçirsə əgər!
Qitələr dolanan didərginlərin
Yolundan, izindən keçirsə əgər!
O şəkər dillərin belini qıran
Şəhriyar sözündən keçirsə əgər!
Şumerdən adlayan on min il yaşlı
Ölümsüz bir dilin söz qatlarında
"Nənə" kəlməsindən keçirsə əgər!..

Arzu da beləcə sərhədsiz olur,
Ümman da beləcə, göy də beləcə.
Ruhumuz sərhədsiz olduğu üçün
Payımız gəlibdi göydən beləcə!..

Peredelkino, 18.01.1983

YURDUMUN ƏN GÖZƏL NƏĞMƏSİ

Yurdumun ən gözəl nəğməsi – öndə,
Hələ yazılmamış, oxunmamışdır.
Sazıma can verən min-min sazəndə
Hələ sarı simə toxunmamışdır.

Dağlara köklənmiş el yollarında
Döyüş mahnıları çalınmalıdır.
Araz simi üstdə addımlarımdan,
Görüş mahnıları çalınmalıdır.

Ümidlər könlümlə qoşa boy atan,
Əzablı günüm də bal dadır, nədir?!

Sədası Cənubu Şimala qatan
Ən böyük sevincim hələ öndədir.

İgidlər yol gəlir üzü sabaha,
Gözəllər görüşə bəzənir hələ.
Ən sərrast sözümün qiyməti baha,
Damarda qanımla bəslənir hələ.

Yollar qırağında bir dəstə uşaq,
Papağı gözündə, dizləri açıq...
O yalın ayaqdan güc əmən torpaq
Açılan gülüylə könül açacaq...

Çırtlayır çiçəyi, çağlayır suyu,
Bu Vətən deyilən okeana bax!
Çəkilər, çəkilər yüz illər boyu,
Kim deyir o bir də qabarmayacaq.

Nağıllar ağaca döndərib bizi,
Deməyin nağıldı, daşdı, yazıdı.
Daşların nəbzini duyuram, düzü,
Ağac qardaşım da canlanasıdır.

Bağışlasın məni Füzuli babam,
Deməsin söz bürcüm uçulacaqdır.
Dilimin söz qatı açılıb, amma,
Möcüzə qanadı açılacaqdır.

Ən gözəl şəhərlər tikilir hələ,
Ən rahat yolumuz çəkilir hələ,
Ən iti sözümüz yetişəcəkdir.
Ən dərin yaralar bitişəcəkdir.

Qılıncam – ovxarım sözlə, inamla,
Min ilin başında yurdun səsiyəm,
Özüm bu günlərə kül ola-ola
Gələcək günlərin pərvanəsiyəm!..

AÇILAN YOLLARIN MAHNIMI

Yollar açılacaq bir gün, bilirəm!
Yollar göyərəcək cavan meynətək
Mənim ürəyimdən, arzularımdan.
Arazı min yerdən kəsib keçəcək,
Xəzəri arxayın üzüb keçəcək.
Könlümdən boy atan diləklər kimi
Bu yurdu büsbütün bürüyəcəkdir.
Açılan yollarla bizim sevgimiz
Tumurcuq-tumurcuq yeriyəcəkdir.
Olub qara şanı, olub ağ şanı,
Olub qızıl şanı, çilçıraq şanı
Evlərdə, yollarda alışacağam.
Milyon cığır olub, milyon iz olub,
Yurdun torpağına qarışacağam...

Yollar açılacaq bir gün, bilirəm!
Bəlkə Yardımlının dağları üstdən,
Bəlkə Cəbrayılın, bəlkə Culfanın,
Bəlkə Astaranın bağları üstdən.
Birlik həsrətindən yanan ellərin
Qüssələri üstdən, ahları üstdən!
Özüm yetişsəm də, yetişməsəm də,
Övladım gedəcək ön cərgələrdə.
Görə bilmədiyim doğma ellərə
Mənim gözümlə də baxacaq hərdən.
Özüm yetişsəm də, yetişməsəm də,
O böyük sevincdi qaynadan qanı.
İndidən, indidən oxuyuram mən
Açılan yolların mahnılarını!..

19.III.1983

DOĞMALIQ

Dayandığım bu zirvədən
"Yurdum..." deyə pıçıldasam,
Bu pıçıltım yetişəcək
yer üzünün o başına.
Torpaqdakı qarışqa da sevinəcək!
Başım üstdən ötən qartal
qıy vuracaq:
"Mən də sənin qardaşınam"!
"Mə...nim yur..dum!"
Açılacaq ağacların yarpaq dili,
Yaşıl otlar sübh yelində
yellənəcək xanım-xanım!
Gündoğandan Günbatana
şığıyacaq
od yelkənli ilxıların burulğanı!
Damar atıb
ağaracaq qədim yollar...
Qopuzların, çuxurların
harayında ağrı-acı.
Yer üzündə qabağımı kəsən sədd yox,
Yer üzünün qapıları mənə açıq!
"Ehey, mənim Oğuz elim,
Sonsuz dünyam, sonsuz elim!"
...Axarından qalar çaylar,
Çiçəklərin gözlərində
quruyar yaş.
Qalaların bürcü qalxar,
İgidlərin kürzü qalxar,
Adamlar da qayalaşar,
Qayalar da adamlaşar
yavaş-yavaş.
Bayrağımın işığından
gecə-gündüz səddi itər!
Mən yoldayam!
"Yurdum"! deyib pıçıldasam,

Bu yollarda
mənə arxa dağlar gedər!
Bir zirvəyə qalxmaq asan,
Bu zirvədə dinmək çətin!
"Haray" səsim
şimşək olar
başı üstdə
sübh yuxulu məmləkətin!..

21.III.1983

TARİXİ YARADANLAR

Sağ olsun ulularım,
İşığı ərzə düşən
Sönməz ocaq çatıblar.
"Vətən, vətən" deməyib
Vətəni ucaldıblar!

Yürüşümdən titrəyib,
Həsəd çəkən, dərd çəkən,
Kilsələrin küncündə
Kağızda dövlət qurub,
Sərhəd çəkən, sədd çəkən –
Süfrəmdən tikə uman
Görüb özü damladır,
Mən isə sonsuz ümman!

Onda Yurdu qoruyub,
Adlayıb davaları,
Tarixi yer üzünə
Qılınc ilə, daş ilə,
Yazıbdı babalarım!

Şərqi Qərbə yetirib,
Qərbi Şərqə çatıblar.
Tarix yazmasalar da,
Tarixi yaradıblar!..

QOPUZ SƏSİ, ŞAMAN DUASI

Dağlıq Altay şairi Diman Biləkova

Oxuduğun bu mahnı
Tanrı nəfəsitək yaxındır mənə,
Anamın səsitək yaxındır mənə.

Yaxındır, doğmadır öz adın kimi.
Bu Qızıl dağları, Savalanları,
Bu Xantenqriləri, bu Şahdağları
birlik karvanına qoşub aparan
qədim bir sevginin fəryadı kimi.

Yaxındı ruhuma ölməzlik verən
bir dilin minillər altından gələn
Duyğu bünövrəsi, söz qatı kimi.

Bu Ana yerlərə, Ata göylərə
toxum bərəkəti, göz işığıyla,
şaman duasıyla, qopuz səsiylə
qarışan ürəyim, həyatım kimi!..

Oxuduğun bu mahnı
ömür dediyimiz yalqız limanın
sakit sahilindən qoparır məni.
Keçmişdən boylanan solğun ay kimi
çəkib şüa-şüa aparır məni.

Qanımda hayqıran vuruş eşqinin,
Gündoğan eşqinin, yürüş eşqinin
sədası bu qədim mahnından gəlir.

Ulu bir ulusun beşiyi olmuş
o ana qoxulu, o süd qoxulu
dağların ruhundan, ahından gəlir!

Mənə qardaş deyib oxudun sonra,
Mahnın qardaşlığın himninə bənzər,
Balaca yurdunun böyük dünyaya
səpilən sevinci, qəminə bənzər...

Uzaqdan iki yurd çəkirdi bizi,
dilimiz ayrıla bilmirdi ancaq...
Min illər dalında baş-başa yatan
ölümüz ayrıla bilmirdi ancaq.

Ehey! Duman qardaş, zirvəndən enmə!
Yurdunun gücüdür – mahnındakı qəm.
Gündoğan beşikdən işıqla axan
Şuman duasıtək, qopuz səsitək
Səhralar üstündən, dağlar üstündən,
Mən səni həmişə eşidəcəyəm!..

Oktyabr, 1982

TƏRCÜMƏÇİMƏ

Məni bir ocağa, kəndə, rayona,
Bir dağ arasına,
dərə dibinə
Balaca vadiyə,
balaca yola,
Balaca dünyaya bağlama əsla.
Necə arzulasam, necə sevsəm də,
Köküm, uşaqlığım, xatirələrim,
Ömürlük yazmağa bəs eləsə də,
Özümə qısılıb qala bilmədim.
Budaqdan asılan gecəquşutək
Bir evdən asılıb qala bilmədim.

Sən mənim dünyamın üfüqlərini
Axtarma siyasi xəritələrdə.
Mən orda bölünmüş,
əyalət, azlıq...

Kağızın üstündə parça-tikəyəm,
Siyasi xəritə – siyasətbazlıq!..

Mənim taleyimə kağız biganə,
Mən bu bölgülərə üsyan səsiyəm.
Mən öz istəyimdə, sözüm, ruhumla
Yurdumun bölünməz xəritəsiyəm!

Peredelkino, 22.XI.1983

YANDIRAR MƏNİ

Gecikib payızda açılan çiçək,
Sevinci qürubda oyanan ürək,
Qatardan ayrılıb yol gedən durna,
Sonsuz düzənlərdən çovuyan külək,
Sizin kədəriniz yandırar məni.

Övlad yollarına göz dikə-dikə
Ömrü yola verən, ay ata-ana!
Övlad qayğısına yetə bilməmiş
Yetdiniz onların ayrılığına!
Ürək intizarda, qulaqlar səsdə.
Günlər xəbərlərdən asılı qaldı.
Dünyanı dolandı ürəkparanız
Ömür bir ocağa qısılı qaldı.
Dağlar arxasında, ay balaca kənd,
Şəhdi cığırları titrəyən çöllər,
İşığı sozalmış ay doğma ocaq,
Nağılı bitməmiş mehriban ellər,
Sizin dözümünüz yandırar məni!

Gözü çeşmə olmuş qardaşıma bax,
Sərhədlər üstündən yenə əl edir.
O Araz çayıdır – ağ şimşək kimi,
Ya hicran dağları əriyib gedir?

Siz ey yer üzündə doğulmamışdan
Alnına ayrılıq sözü yazılan!
Özü bu dünyaya göz yummamışdan
Qəlbində ümidə məzar qazılan
Cənublu, Şimallı – o tay, bu taylı
Hicranı əsrlə başabaş olan,
Dərbəndli, kərküklü, qarayazılı,
"Türk", "tatar", "iranlı", "əcəm",
"müsəlman",
Gah da "tərəkəmə", "qızılbaş" olan,
Qolları Araza körpü olmamış
Sınıq körpüləri su altda qalan
Fikirli qardaşlar, qəmli bacılar!
Sizin sükutunuz yandırar məni!
Qurbanı olduğum, ay ata-ana,
Başına döndüyüm Vətən torpağı,
Körpüsü qırılan qəmli Arazım,
Ümidim, göz yaşım, həyatım, arzum,
Sizin sükutunuz yandırar məni,
Sizin kədəriniz yandırar məni,
Sizin dözümünüz yandırar məni!..

Dubulti, 13.1.1982

QARA DURNA

Yumurtadan çıxan kimi bir-birinin üstünə cuman qara durnanın nəsli kəsilmək üzrədir

Aman durna, dimdiyini öz başında sınama,
Sən gücünü yurddaşında, qardaşında sınama!

Vaxt olub ki, öz gülləmiz gözümüzə tuşlanıb,
Öz zəmimiz əlimizlə biçilməmiş xışlanıb,
Pisliyimiz düşmənə xoş! Daima alqışlanıb;
Mən də elə sənin kimi öz-özümə qənimәm,
Öz nəfsimlə talan olub öz yatarım, xəzinəm...

Biz də elə sənin kimi kor qəzəbin əsiri,
Bölgü vaxtı payımıza pis çox düşüb,
nəhs-iri.

Sonra gəlir etdiyimiz əməllərin təsiri,
Sonra axan göz yaşları gedənləri qaytarmaz.
Tüklərini qardaş əli didənləri qaytarmaz.

Hansı qəzəb şimşəyidi gözlərində oynayan?
Hansı nifrət duyğusudu damarında qaynayan?
Nə həvəsdi barışığa ümid yeri qoymayan?
Hansı tale hökmü ilə bir nəsildə iz azır?
Nəyə görə sən alırsan öz-özündən qisası?

Qardaşına qənim olub tükənibsən, tükənib,
Səma böyük, sən köməksiz – təklənibsən,
təklənib,

Sənin qəmin öz qəmimtək ürəyimə yüklənib,
Aman durna, dimdiyini öz başında sınama,
Sən gücünü yurddaşında, qardaşında
sınama!..

Dubulti, 13.1.1982

ÜRƏYİN MÖCÜZƏSİ

İnanıram möcüzənin olacağına
Yerdən gələn, göydən gələn sirrin səsinə,
Kiçiklərlə böyüklərin ara verməyən
Davasında ədalətin qələbəsinə.

İnanıram min il əvvəl, milyon il əvvəl,
Bir ot kimi, ağac kimi yaşadığıma.
Əbədiyyət yollarında min yol doğulub
Öz borcumu müxtəlif cür daşıdığıma.

Arabamı vaxt atları dartıb aparır,
Qayğı yükü, fikir yükü çəkməkdi peşəm.
Əsrlərin dumanından bir şüa kimi,
Kəlmə kimi, duyğu kimi keçib gəlmişəm.

Dəyişdirir öz yerini materiklər də,
Min il sürsə, zülmətlərin sonu səhərdi.
Zirvələrin öz ucalıq taxtından salan
Öz səbrində mürgüləyən zəlzələlərdir.

Korlaşacaq cəlladların iti qılıncı,
Dara çəkən çəkiləcək axır ki, dara!
İnanıram arılarına fil yıxdığına
Öz dalınca dağlar çəkən qarışqalara!

Gör həyatı necə duyub ulularımız,
Dünya ki var – yaxşıyla pis döyüşəcəkdir.
Siçan-pişik oyununda ancaq bilirəm,
Geci-tezi rollarımız dəyişəcəkdir.

Çayların da geri axmaq ehtimalı var,
Baş çəkəni bir də gördün yumruq da çəkdi.
Səddə dönən "Araz" sözü, "aramız" sözü
Tarix üçün bircə anlıq köks ötürməkdi.

İnanıram möcüzənin olacağına,
Milyon ili əzbər bilən yaddaşa belə.
Yad dünyadan ünvanımı soraqlayaraq
Qonaq gələn mən görkəmdə adaşa belə.

Bir də gördün buzlaqların donu açıldı.
Bir də gördün səhraları ekvator kəsir.
İnanıram möcüzənin olacağına,
Bu inam da ürəklərin möcüzəsidir!..

1982

ŞAİR HEYKƏLLƏRİ

Bakı meydanlarında
Heykəl-şairlərin
boynu bükülü.
Üzlərinə tariximin
qəmi çəkilib.
Nizami
ədalətli dünya axtarışında,
qayğısı aşır başından...
Nəsimi
dərisindən soyulsa da,
hirsindən soyulmayıb.
Öz heykəli qoyulsa da,
haqqın heykəli qoyulmayıb!
Zaman adlı ümmanda
Füzuli – qəm adası.
Sellənən göz yaşları
fələyin bünövrəsini
yerindən oynadası...
Səbuhinin başında
bir əsrdi qar qalıb.
Natəvan
əldə qələm,
dildə köz
ağlar qalıb.
Sabir oturub yenə
dərd tufanı içində.
Keçir sonu görünməz
qəhqəhənin, harayın
od karvanı içindən.
Yol üstdə fikrə dalıb
nigarandı Nəriman,
sirrini bizə deməz.
Ürəyi ağrımışdı,
el ağrısın istəməz!
Vurğunun ağ saçları

küləklərin əlində.
"Sən mənimsən" sözləri
oxa dönüb dilində,
Cabbarlının yaxası
sübh yelinə açılıb.
Müşfiqin dövrəsində
güllərə qan saçılıb.
...Yanırlar illər boyu
yada da, qardaşa da.
Düşünməyi, duymağı
öyrədiblər daşa da.

Heykəltəraş olsaydım
bir fəryad heykəli yaradardım.
Şair babaların qəmini
qəzəbin ayağı altına atardım.
Deyərdim: bəsdi, atam,
daş da əridi dərddən.
Bu qədər ağlar vətəndaşı
necə ovutsun vətən?

Heykəltəraş olsaydım,
tarixi çəkərdim məhkəməyə.
Sənət taxtına qonardım.
Hər şairin yanında
dərdinə ortaq olan
bir qardaş heykəli də yonardım!

BİR SƏSİN GÜCÜ

Bir rəsmi məclisdə ana dilimizdə kəlmə kəsən olmadı. Təkcə təbrikə gələn uşaqlardan biri iki bənd şeir dedi...

Boynu qalstuklu körpə çiçəyim,
Bu boyda məclisdə
səndən savayı
öz ana dilində kəlmə kəsərək

bir nəfər danışan olmasa belə,
ədalı xanımlar, harın kişilər
oxuyub keçsə də yad bir havanı
sıxılma, əzizim,
darıxma canım!
səni bu daş duyar, bu divar duyar.
Səni bu göy duyar, bu hava duyar...

Şer söylədiyin cingiltili səs
nə sənin səsindi, nə mənim səsim.
Çiçək pıçıltısı,
şimşək çaxışı,
könül hayqırışı –
Vətənin səsi!

Salonu titrədən büllur harayla
Tanrının özüdü danışan bu gün.
Torpağın təpəri gəlib səsində
yatmış vicdanları oyatmaq üçün.
Yoxsa bu güc hardan, bu sehr hardan,
Yoxsa bu möcüzə, bu işıq hardan.
Yoxsa ki, bu bülbül zənguləsindən
Çoxları çaşmazdı dal sıralarda.

Boynu qalstuklu körpə çiçəyim,
sinəndən fışqıran səsin bu axşam
güclüdür Koroğlu nərəsindən də,
güclüdür raketlər hədəsindən də!
Köksünə sıxılıb bir elin ruhu,
Ulduz təbəssümü, çeşmə nəğməsi.
Bir körpə çiyninə yüklənib gələn
Tarixin səsidir, tarixin səsi!

Beləcə bir səsə söykənir vətən,
Arxayın-arxayın ölməzliyinə.
Beləcə bir səsdən asılır Vətən
Yanır başım üstə günəştək yenə!..

1974

YIĞIBLAR ÜZÜMÜZÜ

Çingiz Əlioğlu və Nüsrət Kəsəmənliyə

Qaymaq bağlayan kimi
Yığıblar üzümüzü.
Alıblar ağlımızı,
Sıxıblar gücümüzü...
Boynu bükük durmuşuq
Biz tarix qarşısında.
Deyib: gülmə toyunda,
Yaş axıtma yasında!..
Düşmənə heykəl qoyub
Başına and içdirib.
Məni qıl körpüsündən
Bu dünyada keçdirib.
Qolumda qanlı qandal,
Başımda tərs dəyirman.
Vermişəm açıq əldən,
Ayıq başdan imtahan.
Tarixin haqsızlığı,
Sayımmı, saya gəlməz!
Xoş günümdən mey dadan
Dar gündə haya gəlməz.

Çəməndə boy göstərib
Təzədən dirçəlirik.
Aç qapını, ey zaman,
İmtahana gəlirik!..

Ah dostlarım, alnından
Günəş doğan, ay doğan.
Ah dostlarım, səhvləri
Düzəltməyə darıxan.
Başının üzərində
Vicdanı bayraq olan.
Eldən kömək ummayan,
Elinə dayaq olan.

Gül üzlü, gülşən üzlü
Şəhidləri dirildən.
Bizim də taleyimiz
Yazılıb irəlidən.

Bilmirəm nə vaxt gələr
Son imtahan, son sınaq –
Taleyin şirin payı:
"Ya ölümə boyun əy,
Ya özün ol!" harayı.
Tərəddüdsüz, qorxusuz
Hökmümüzü verən an
Deyərik, haydı, dostlar,
Qurban gedən qaymaqdı,
Satılıb qalan ayran!..

1.II.1983

ÖZÜNÜ ÖYMÜR

Bulaq nəğmə deyir,
sözünü öymür.
Çiçək göz oxşayır,
gözünü öymür.
Çinar göyə çatır,
özünü öymür.
Vətən
torpağını,
düzünü öymür...

Köhnə kişilər də
elə beləydi.
Qılıncını öyməz,
sözünü öyməz.
Vətən torpağıtək
özünü öyməz.

Öyüncdən, tərifdən
uzaq idilər.
Biləklə fil gücü
gəzdirsələr də,
Ürəkdə həmişə
uşaq idilər...

Dubulti, 1.XI.1982

YURDUMUN QİSMƏTİ

Bütün sevinclərin bir üzü kədər,
Bütün ağ günlərin bir üzü qara.
Ömrü görüşlərə çəkən yelkənlər
Sonra da açılır ayrılıqlara.

Yüz-yüz adamın da içində təkəm,
Ancaq tək deyiləm düşüncələrdə.
Zorla qazandığım ən şirin tikəm
Süfrəmdə zəhərə çevrilir bəzən.

Yol boyu doğmalar dönsə də yada,
Dözürük hələ ki, gənclik əhdiylə.
Xoşbəxtlər içində xoşbəxt olsam da,
Bədbəxtəm dünyanın ən bədbəxtliyə.

Ac görsəm özüm də bir ac kimiyəm,
Qayğılar, qüssələr başımdan aşır.
Mən ildırım vurmuş ağac kimiyəm –
Bir budağım quru, birisi yaşıl...

İstək də ucalıb, enəndir, deyim,
Görüşdük, bəs yenə bu giley nədir?!
Dünyada ikili ömür sürməyim
Bəlkə yurdumun taleyindəndir...

Dubulti, 5.XI.1982

BİR BƏSTƏKARA

Asan söz üstündə – təzə əsərin,
Asan söz üstündə – mahnılar asan!
Ürəksiz şerinə ürəksizlərin
Bir mahnı ömrü də bağışlamısan!

Demədin od ruhlu şairlər hanı,
Yurdun əzəməti çağlar səsində.
Niyə sən mahnının qəhrəmanını
Gəzdin şerimizin dal cərgəsində?

Belə vəsf etməklə saxta "yarını"
Öz saxta duyğunu ələ salmısan.
Gülüzlü qızların gül adlarını
Boyat mahnılarla dilə salmısan.

Sənətin yoluyla ucalır zaman,
Mahnı da fəhlətək tər tökməlidir.
Təzə nəğmələrin ucalığından
Yurdun ucalığı görükməlidir.

...Səndən gileyliyəm, bəstəkar oğlan!
Duymadın yurdumun gur mahnısını.
Yüz səddin, sərhəddin üstündən aşan
Araz mahnısını, Kür mahnısını.

Vətənim od yurdu, mahnınsa soyuq...
Min illər gurlaşmış çatdığım ocaq.
Mahnıda yurdumun ucalığı yox,
Sənin xırdalığın duyulur ancaq.

Hicran... gözün yolda... səni atan qız...
Ömrün belə-belə oyunu çoxdu.
Gözündən yaş axan mahnılar saysız,
Gözündən od çıxan mahnınsa yoxdu.

Mən elin ruhundan qanadlanmışam,
Mahnılar bu ruhu tanıda gərək.
Görüşə səsləyən mahnıyla qoşa,
Döyüşə səsləyən mahnı da gərək!

Qoy çaylar mahnına tökülsün sənin,
Mahnını dağlardan aşırmalısan.
Sənəmlər dilindən alıb nəğməni
Yurdun yellərinə tapşırmalısan!..

Dubulti, 25.1.1983

ÇEŞNİLƏR

1

Mənim ürəyimi qopardın, ey dost,
Tullama uzanıb gedən yollara.
Bir ucu hicrana,
bir ucu qəmə,
Bir ucu ölümə yetən yollara.

2.

Qabarlı əlinə baxan deyər ki,
Elə ürəyi də belə daş olar.
Onunsa köksündə payız çiçəyi,
Onunsa köksündə uşaq qəlbi var.

3.

Ömrümə bir isti doğmalıq kimi,
Könlümə bir həzin nəvaziş kimi
Gəldin –
Bu gəlişin məni ağrıdır.
Səfər başlanmamış elə bilirəm
Öndə güman yoxdur, yol başa çatır!..

4.

Qovuşub, birləşib baxışlarımız,
Görünməz tül kimi örtüb Vətəni...
Dar gündə bu sirli baxış toruna,
Yanar baxışların naxış toruna
Salıb məhv edirik yağı düşməni!

5.

Ümidi paltartək
geymək olsaydı,
Arzunu çörəktək
yemək olsaydı
Düşüncədən ev tikib
qala bilsəydi adam –
Xoşbəxt olardım!..

6. MƏN KƏNDÇİ OĞLUYAM

Mən kəndçi oğluyam, on illər ötə
Gözümdən silinməz o əzəlki qəm.
Könlüm səyyahlara açılmaz qitə –
Dünya dəyişsə də, mən dəyişmərəm!

7. AĞAC KİMİ

Məni də bu ağactək
çətindi yox eləmək,
Kəsilən budaqlarım pöhrə olub əkildi.
Boyum torpaq üstündə nə qədər qısaldısa,
Bir o qədər torpağın ürəyinə çəkildim...

8. ƏBƏDİYYƏT

Mən – kainat boşluğundan
uçub gələn qum dənəsi!
Bir az işıq, bir az zülmət,
bir az ruham, bir az da can.

Keçmişdə də izim qalıb,
Olacağam bu dünyanın sonunacan!..

9.

Bir səs məni çağırır
Amma yer səsi deyil.
Bəlkə göy adamıdı,
Bəlkə qəfləti ölüm...
Kimsə, özgəsi deyil!..

10.

Ay it, üstümə cumma,
Azmı yolumu kəsən.
Mən bu yolu keçənəm,
Sən bu yola hürənsən!

11. ÜRƏYİM

Günəşə açılan çiçəklər kimi
Ürəyim açıqdı yaxşılıqlara.

12. SOYUQLUQ

Soyuq ev, soyuq ürək
Kimin nəyinə gərək.

13. YENİ İL GECƏSİNİN TƏKLİYİ

Yansa da gözlərdə çılçıraq kimi
Mən indi bildim ki, kasıbmış dünya.
Ömrün budağından oyuncaq kimi
Bizi bir günlüyə asıbmış dünya.

14. HAQQ QAPISI

Qəminə şərik eylo,
Ürəyim qəmə açıq.
Biz haqqın qapısıyıq –
Bütün aləmə açıq.

15. BİZDƏN SONRA

Ömür yaxşı-yaman yetişir başa,
Beşi rəhmət deyər, beşi pis desə.
Ancaq alov düşər torpağa, daşa
Kimsə arxamızca "ürəksiz" desə!

16. ƏKİNÇİ AYAQLAR

Bu balaca dünyada
Ayaqlarım yol əkir...
Yollar da gecə-gündüz
Sənin yanına çəkir.

17. SİRRİN ASTANASI

Zirvədə quş olmaq keçir könlümdən...
Bir gün bu qayadan uçacağam mən.
Hər dəfə dağlara elə qalxıram,
Sanki bir dağ sirri açacağam mən...

18. YORĞUNLUQ

Daha səyahətlər sevinc gətirmir,
Daha uzaq yoldan çəkinirəm mən.
Sahilini aşan dəniz kimiyəm,
İndi də özümə çəkilirəm mən!

19. YAŞIL GÖZLƏR

Bir cüt yaşıl yarpaqdan
Üstümə sevgi damcılayır.
Bir cüt yaşıl gözdən
Həsrətdi süzülüb gedən,
Həsrət ürəyimi qamçılayır...

20. TANIYARMI

Gözəl qız, o beşikdə
Yatanı mənə göstər,
Görüm ki, gözlərində

Bir sirrə qapı varmı?
Görüm ki, "oğul" deyib
Çağırsam tanıyarmı?

21. SƏNDƏN UZAQLARDA

Səndən uzaqlarda
günlər uzanır,
Yollar sonsuzlaşır,
zaman daşlaşır.
Səndən uzaqlarda bir damcı kədər
Bir ümmana dönüb
başımdan aşır...

22.

Mən bilmirəm bu yolsuzluq hardan gəlir,
Silah tutmaq gərəkəndə
bu əlsizlik, bu qolsuzluq hardan gəlir?
Duz gölündə bata-bata
bu duzsuzluq hardan gəlir?
Dahiləri doğan xalqın
fikrindəki bu ucuzluq hardan gəlir?

ANAMIN DUASI

Orda, zirvələrin qonşuluğunda,
Duman işığında, ay işığında,
İnamdan yuxarı, dindən yuxarı,
Arzumdan yuxarı, məndən yuxarı
Anam od üstündə dua oxuyur,
Anam su üstündə dua oxuyur.
Məni tilsimləyir bu uzaqlıqdan,
Onun pıçıltısı haraydı, ahdı.
Xəstələnmək olmur, dərd çəkmək olmur,
Ürəyinə damar, vallah, günahdı...

Daha səfərlərə çıxan deyiləm,
Yollarım anamın ömür yumağı.
Ömrünü dünyaya səpələmişəm.
Soyuq ürəklərin nazına dözüb
Ana ürəyinə köz ələmişəm.
Dünya yollarına su çiləməkdən
Mənim ağ buludum yağışa dönür.
Anam Tanrıya da dua oxuyur,
Anam özü boyda alqışa dönür.

Çölün çiçəyi də ana payıdır,
Zirvədə ağaran qar – qışındandır.
Qürbət yollarında rahatlıq görsən
İnan ki ananın alqışındandır!
Tanrı təkliyilə öyünə bilməz,
O özü Tanrını qoşa yaratmış.
Gözə görünməkdən məhrum olan kəs
Dünyaya analar ruhunda çatmış!
Mənim ayaqlarım yollarda qabar,
Qabarlı əliylə corab toxuyur.
Xəyanət odundan, böhtan selindən,
Hava yollarından, su yollarından
Bizi qorumağa, hifz eləməyə
Anam yer üzünə dua oxuyur,
Anam göy üzünə dua oxuyur,
Dünyaya bir dəstə oğul-qız verən
Təkcə,
öz-özünə,
dua oxuyur...

1983

QARAGİLƏ

Qəmli "Qaragilə" mahnısı vardı,
Sözü ilmə-ilmə, vurğusu dən-dən.
Bürünüb anamın cavan səsinə,
Göyərib anamın cavan qəlbindən,

Ondan çox-çox əvvəl doğma Təbrizin
Qanı selə dönmüş səngərlərindən.

Nisgili sonsuz dəniz,
Gileyi dalğa-dalğa,
Mahnı ilə ölməyi
Tarix öyrədib xalqa.

Döyüş mahnımız da gözləri yaşlı...
Yəqin qabaqcadan görüb son günü.
Aç qapını, Qaragilə,
Qoy görüm qardaşın çiçək üzünü!
Anamın kədərli cavan qəlbindən,
Təbrizin qan dolu səngərlərindən
Ayırma məni, Qaragilə, ayırma!
Mənim beşiyimə süd qanla axıb,
Ayrılıq mahnısı düşüb payıma...
Ağlağan kişilər, sısqa kişilər
Döyüş mahnıları oxumalıykən
Qəmli fikirlərlə uyumaq olmaz!
Belə qəmli-qəmli oxuma, canım!
Kədərli mahnılar qəlbimə yağıb
Göyərdər bir təzə qorxunu, canım!

Doğma Təbrizimin səngərlərindən
Gözümə bir damla qan çilənmişdi.
Anam oxuduğu "Qaragilə"dən
Ruhumda gözəllik irilənmişdi.

Sil gözün yaşını, Qaragilə!..
İtər göz yaşınla həyatın tamı.
Qoy qanlı gözümlə baxım düşmənə,
Gözəl ürəyimlə qucum anamı!..

ANAMIN MƏKTUBU

Anamın savadı köhnə əlifba,
Anamın əsəri – mənə məktublar!..
Ayrı nə oxumaq keçir könlündən,
Nə də cızma-qara hövsələsi var.

Kim sözə bu qədər can verə bilər,
Çox da xətti pisdi, kağızı sarı.
Ana məktubları mənim gözümdə
Dünyanın ən nadir əlyazmaları!

Savad sahibləri çox öyünməsin,
Ad var kölgəsində min ömür azır.
Anam adlı-sanlı deyildir ancaq,
Sözü ki, öz ana dilində yazır...

Bizim çaylarımız zirvədən gəlir,
Öz daş yatağından çıxan olmayıb,
Anam qabağımda yad qapı açmır,
O hələ Anadır, "Maxan" olmayıb.

Alim var... oğluna çox şeylər verib,
El ruhundan başqa! Daşlanmalıdır!..
Analıq hüququ dünyada məncə
"Ana" kəlməsindən başlanmalıdır!..

VƏSİYYƏT

Məzarımı el yolunda qazdırarsınız,
Doğmaların təmasından taparam aram.
Baş ucumda çopur üzlü Holavar daşı[1]
Dayanarsa ayrı heç nə arzulamaram...

[1] Yardımlıda, köhnə yurd yerimizə gedən el yolunun üstündəki qayanın adı.

El yolunda...
Gədiklərin aşırımında,
O yolda ki, indi onu məftillər kəsir.
Yaz gələndə o yollarla arandan dağa
Köç çatılır, sürü qalxır, ilxı tələsir.

O yerdə ki, bir yaxası Xəzərə açıq,
Bir tərəfi Savalandı – ilğım içində.
O yerdə ki, Holavarlar oxuyardılar,
Yaşı sirdi el üçün də, zaman üçün də...

İlan kimi qabağından çıxanda yollar,
Viran qalmış obalardan dağılanda qəm,
Sinəm üstən keçib gedən ellərimizin
Arzumdakı mahnısını dinləyəcəyəm..

23.III.1984

YOLUN YARISINDAN

Yolun yarısından qayıtdıq geri,
Qayıtdıq günahın astanasından.
Bu yolla adlayıb uzun illəri
Getmək çətin imiş, qayıtmaq asan.

Ümidsiz gözündə tənə oxunar,
Ayrı nə yalvarış, nə bir umacaq.
Bizi bu görüşün məchulluğuna
Arzu axınıydı aparan ancaq.

Ehtiras tufanı yenə tələsən,
Bəs onu qəfildən soyudan kimdi?
Gördüm uçurumtək aranı kəsən
Mənə yol verməyən öz ürəyimdi.

Dedin: "Yarı yoldan dönmərəm qəti,
Onsuz da bəd uğur gözləyir məni"

Yox, öndə yad eşqin şirin şərbəti,
Daldasa öz evin gözləyir səni...

Sağlıqla, əzizim, olsam da harda,
Daha sənin üçün şaxtayam, qaram.
Bir günlük nəşəyə gedən yollarda
Kiminsə adını ayaqlamaram!..

UNUT MƏNİ

Saralan yarpaqları
saxlamırsa budaqlar,
tufanın nə günahı?
Unut məni, at məni,
sənin bahar ömrünə
vaxtsız gələn payızam,
qadağayam, günaham...

QAYITMA

Səni xatırlaram ömrün başında,
Barmağın son dəfə dəyəndə simə.
Yanaram səadət axtarışında
Əsil səadəti itirdiyimə.

Dikələr qocalmış illər dalından
Zamana dağ çəkən əhdin, surətin.
İkinci, üçüncü sevgilər, aman,
Solğun kölgəsiymiş ilk məhəbbətin!

Dünyada bircə yol sevildim ancaq,
Bircə yol duymuşam xoşbəxtlik nədir,
Qalanı hamısı oyun, oyuncaq,
Birinci duyğunun xatirəsidir.

Ötən günlərimiz durar üzümə,
Vədələr yalançı söz qırığıymış.
Sevgidən yazılan şeirlər demə,
Sevgisiz qəlbimin hıçqırığıymış...

Səni xatırladım...
azdı bu, azdı!..
Ömrün yazı üçün ha alış, ha yan.
İlk sevgim bəlkə də dərdli Arazdı,
Kama yetişməmiş keçir dünyadan.

Mən əzab çəkdikcə tale kef çəkər,
Güman da təzədən gələr bahar, qış...
Yol getdik sevincdən kədərə qədər,
Bu yol məhəbbətin qurbanlığıymış...

Qarşıda həsrətlər,
dağlar, dənizlər,
Yolun son nişanı ölümdür – yaşıl.
Qayıtma, bir məğlub orduyuq biz də,
Geri qayıtmağa yol qoymamışıq...

GƏRƏK DEYİLSƏN

O xoş pıçıltılar yoxmuş dünyada,
Əlin yox, küləkmiş saçımda gəzən.
Ayrılıq adlanan uçurumda da
Məndən köməyini əsirgəmisən.

Nə sevinc qalıbdır,
nə yanar ürək,
Nə də bir təsəlli yeri görünür.
Zülmətə süzülən şam işığıtək
Gözündə sonuncu ümidim sönür.

Gözündən biganə bir həvəs baxır,
Bu mənəm sabahdan əlini üzən.

"Sevirəm" sözünü dişimdə sıxıb,
Deyirəm: sən mənə gərək deyilsən!

Adın ürəyimi isitməz daha,
Qoşa dayanmağa üzümüz yoxdu.
Sonuncu görüşü başa vurmağa
Bir kəlmə mehriban sözümüz yoxdu!

Sanki yad torpağa sıxılır sinəm,
Yox, daha o zərif çiçək deyilsən.
Mən istidən yanan yolçu kimiyəm,
Kölgənə deyirəm: gərək deyilsən!

Ayrılaq! Ah çəkib batmaram yasa,
Dərdin də düz gəlsə, ondan razıyam.
Köksümdə ürək də biganə olsa,
Mən onu qoparıb tullayasıyam!

BAĞIŞLA

Bilirəm heç nəyi qaytarmaq olmaz
Nə göz yaşlarıyla, nə yalvarışla.
Gəlmişəm yanına günahkar kimi,
Bağışla, əzizim, məni bağışla!

Yenə pəncərəndə ağ güllər açıb,
Yenə pəncərələr günəşə açıq.
Gözümə gün düşür, ya baxan sənsən?
Tənəli bir evdə darıxan sənsən!
Yenə analığın soyuq baxışı,
Yenə qaranlığa yağan göz yaşı...

Soluxan duyğunu göyərtmək olmaz
Nə gələn baharla, nə ötən qışla.
Fəsillər saçına çəkib əlini,
Ağarmış saçını mənə bağışla!..

Bağışla, üzünün qırışlarını,
Ötən gəncliyi ki yuxuya dönmüş.
Sənin dodağından qopan ahlardı
Kədər buludutək məni bürümüş!

Gözünün acısı enmiş ömrümə,
Sevinc bəhrəsini dada bilmirəm.
Yuxusuz qalmısan məndən ötəri,
İndi də sübhədək yata bilmirəm!

Arama, günahkar tapılan deyil,
Onun ki, alnına yazılmamış qəm,
Yaş ötür, ən rahat günlərimdə də
Fikrimdə, dərdimtək səni görürəm...

Çətindi bir ömür qurban eləmək,
Sən bu etibarla fəryadsan, ahsan.
Öz yatmış bəxtini oyadammadın,
Məni məzardan da oyadacaqsan!..

Bizim ki arzumuz çiçək nəfəsli...
Niyə sevincimiz qırıldı daşla.
Səni bu günümə yetirəmmədim,
Bağışla, əzizim, məni bağışla,
Keçmişim, günahım, məni bağışla!..

7.IX.1980

BU YURD MƏNƏ TANIŞ GƏLİR

Direkdəki yəhərliyə,
axşamıyla, səhəriylə,
qıyıq gözlü uşaqların
cingiltili səsləriylə
bu yurd mənə tanış gəlir.

Alaçıqlar – yumru ürək,
Alaçıqlar ağ göbələk.

Qopuz dinir, damarımdan
El yolları göyərəcək.
Başım üstdə bəyaz günbəz,
Alaçığın ağ çığları.
Anamı yadıma sadan
Asmalığın saçaqları –
Bu yurd mənə tanış gəlir.

Mütəkkədə dirsək yerim,
Qəlib üstdə ayaq izim.
Xalçalarda min illəri
Aşıb gələn sirr dənizi.
Keçmişlərə çəkir məni
Haqdan gələn bir pıçıltı.
Mənim ömür ağacıma
bağlayıblar min il əvvəl
səyirtdiyim kəhər atı –
Bu yurd mənə tanış gəlir.
Qopuz dinir
düşüb rahat ölmək olmur.
Burda nə vaxt yaşamışam?
Bilmək olmur;
Bu yurd mənə tanış gəlir!..

Frunze, 1982

FRANSA YOLLARINA DEYİLMİŞ ŞEİRLƏRDƏN

SEN-DENİ KÜÇƏSİNDƏ GECƏ GƏZİNTİSİ

Naz-qəmzə saçsa da yalançı ədan,
Yorğun baxışların doludur dərdlə.
Keçir müştərilər sənin yanından
Biri istehzayla, biri həsrətlə.

Bir sərxoş küçədə gözəllər kölgə,
Qadına sitayiş
Şərqin səsidir.
Səni ayrı yerdə görsəydim bəlkə,
Deyərdim gözəllik ilahəsidir.

Xəyallar fikrimi hayana çəkir,
Şam kimi yanardım mən dilim-dilim.
Yüz yol görüşünə gələrdim, təki
Bir yol bu əllərə toxuna bilim.

İndisə önümdə anadangəlmə
Durmusan
Bir lentdi abrını örtən.
Əllərin qaynaqdı sanki əlimə,
Bəs niyə oduna alışmıram mən?

Qoluma girirsən xoş təbəssümlə,
Açıq ehtirasın – tərcüməçimiz.
Yarımçıq bildiyim, bir-iki cümlə
Dedim, ya demədim danışırıq biz!

"Müsyö, dayanmağın yeridirmi heç,
On yeddi yaşım var, yaxşı bax bir az.
Müsyö, bu küçəni sona kimi keç,
Məndən gözəlinə rast gəlmək olmaz".

Qolumu deşəcək çılpaq döşləri...
"Yüz əlli franka heç baha deyil!"
"Nə fikrə getmisən qərib "müştəri",
Bu gözəl qolunu buraxan deyil..."

– Madam dil bilmirəm!
– Dil nəyə gorək?
– Madam, vaxtım azdı...
– Hər halda yetər!
Madam qapısını göstərənədək
Sürüşüb yanından ötdüm birtəhər.

...Bu da "azadlıqdan" doğan həqiqət,
Gözümü qaldırıb baxa bilmirəm.
Nağıl dünyasına düşmüşəm əlbət,
Cadugər sehrindən çıxa bilmirəm.

Hər addım başında təzə tamaşa,
Hər addım başında kükrəyən həvəs.
Bilirəm bu küçə yetəcək başa,
Bu sövda axıra yetişərmi bəs?

Baxıram, suallar didir qəlbimi,
Bu Qərbdi –
astarı üzündən betər.
Yal üstə dalaşan küçüklər kimi
Qızlar müştəriyçün itələşirlər...

Paltar gerilikdi bu küçə üçün,
Geyimli qadınlar fikri çaşdırır.
Gözə dürtülməyin həvəsi hər gün
Onları daha da çılpaqlaşdırır.

Birinin geyimi tüldən kəmərçə,
Birinin qurşağı yanını örtmür.
Təzələr çalışır dalda yer seçə,
Gözünü gizləyir, canını örtmür.

Zənci qızlarının qara əndamı
Kömürdü, yanından keçmək olmayır,
Gözləri yanmasa qurd gözü kimi,
Onları gecədən seçmək olmayır!

Bu necə alverdi, bu necə bazar?
Bu yola qoşulub ölən min izdi.
Bizim aramızda sərhəd olmasa,
Deyərdim bu küçə sərhədimizdi.

Ehtiras girdabı...
bacaran üzər!
Şərqliyəm, ruhumu üsyan yeridir.

Bu küçə köhnəlmiş çəpərə bənzər,
Bu qızlar ağaran dirəkləridir.

...Müştərin tapılar, madam, çəkmə qəm,
Mən də məhəbbətin dəlisiyəm, bil.
Ona baş vurmağı mən də sevirəm,
Ancaq o dənizdi, bataqlıq deyil!..

Paris, 4.VI.1982

GÖZƏLLİK İLAHƏSİ İLƏ GÖRÜŞ

Sənin bu ilahi gözəlliyinə,
Dünya min illərdi baxır heyrətlə.
Qocalar, cavanlar baş əyir sənə,
Baş əyir cavabsız bir məhəbbətlə.

Elə bil hamıya səndən pay düşür,
Sənsə biganəsən, soyuqsan qəsdən.
Gözlərin zillənib uzaq keçmişə
Sənə baxanların başının üstdən.

Tamahkar baxışlar öpür sinəndən,
Kimin qismətidi-milyonlar yetir?
Ağ mərmər dönən ilahi bədən
Hər gələn kişinin qoynunda gedir.

İştahlar cəlladı-ulu vüqarın
Kimə yumşalıbdı? Duyan olmayıb.
Sinəndən dikələn ağ butaların
Hələ ki otrindən doyan olmayıb.

Dünya bəxtəvərdi bu sözsüz nazdan,
Daşda da qadınsan. Əsir min ürək.
Elə soyunmusan ilk ehtirasdan
Üç min il yadına düşmür geyinmək...

Gözəllər gəlirlər öz ərləriylə,
Darıxma, önündə tez sınacaqlar.
Öz canlı, vulkanlı bədənləriylə
Soyuq mərmərə də qısqanacaqlar.

İncimə, qoy mən də sözümü deyim,
Hər şey tutqunlaşıb gözümdə nədən?
Mənim əzəl gündən qızmır ürəyim
Hamıya paylanan gözəlliklərdən...

Hanı çit paltarlı Veneralarım,
Gözümdə heykəltək qalan onlardı.
Pambıq tarlasından, üzüm bağından,
Qadın ismətindən, el qınağından
Çıxa bilsəydilər, istəsəydilər,
Sənin gözəlliyin yalan olardı...

Köhnə tanış kimi baxıram sənə
Göyəmi bağlısan, yerə bilmirsən...
Elə vurulmusan gözəlliyinə.
Səndən gözəlləri görə bilmirsən.

5.VI.1982

Mənim üçün Gündoğan sevgisi Ana sevgisi kimi ölçüsüz, müqayisəsiz, əvvəli-sonu olmayan bir möcüzədir. Ömrün başlanğıcı Anasa, dünyanın başlanğıcı Gündoğandır – sanmışam; bütün yollar, bütün arzular oradan başlanır, deməli, bütün sirlərin açarı da ordadı – düşünmüşəm. Bu çözələnən yumağın ucu hardadı, bu tarix çayı hansı mənbədən başlanır? İstər-istəməz üzüm Gündoğana çevrilib. İnsan işığa boy atıbsa, işıqdan doğulubsa, Günəşin dalınca düşüb gəlimbsə Bəşər kitabının ilk səhifəsi də ordadır. Həmişə də o ilk səhifəyə can atmışam. Günəş dilivlə, Günəş əlifbasıyla yazılan bu kitabın mənimlə danışacağına, mənə sirr verəcəyinə inanmışam.

ÖLÜMSÜZ ZƏHMƏT

Dünyanın ən kasıb bir evindənəm,
Yoxsulluq, varlılıq sındırmaz məni.
Mən elə odlara alışmışam ki,
Kədər tonqal ola yandırmaz məni.

Ömrün əvvəlində ehtiyac, əzab,
Gözünə ümidlə baxmışam dərdin.
Əzabla döyülən əyilmək bilməz,
Ümid mayasını çürütmək çətin!..

Yollarım bir yurda baş alıb gedir,
Daha ayrılıqlar üstümə gəlməz.
Yadların sınağı tufana dönə
Bir çiçək mehrinə tablaya bilməz.

Elə sınağından keçdim dağların,
Narahat yollar da mənə düz gəlir.
Hər şeyi zəhmətlə qazandığımdan
Zəhmətim özümə ölümsüz gəlir!

8.VIII.85

GÜNƏŞİN KÖMƏKÇİSİ

Bakı
Dünyaların sirrini
doldurub ürəyinə
Açılıb yelkən kimi
tarixin küləyinə.
Açılıb sevgimizə
sözə, işə, ümidə,
Harda "Bakı" desələr
ürəyimdən qəm itər.

Onun qoynuna dolar
bumbuz Şimal yeli də.
Qürbətdən tufan kimi
qayıdan Füzuli də

Bakı qalxar, qabarar
Xəzərin üzərində.
Boyu bir az da artar
dostların nəzərində.

Zaman Gilavar olar,
zaman Xəzriyə dönər.
Tarix də Bakı ilə
yaşıdlığa öyünər.
Yurdu çəkib aparar
illərin sularından.
Düşmənlərin sualtı
hiylə qurğularından.
Ha başının üstündən
iştah yelləri əssin,
onu qərq eləməyə

ac dalğalar tələssin –
Bakı yenə təmkinli,
neft çıxaran, tər tökən.